## AZƏRBAYCAN DİLİ

**UOT 81**
**https://doi.org/10.59849/2218-4783.2024.2.152**

**ƏBÜLFƏZ QULİYEV**

# "DİVANİ-LÜĞƏT-İT-TÜRK" ABİDƏSİNDƏKİ LƏQƏB VƏ TİTULLAR

*XI əsr alimi, görkəmli türkoloq Mahmud Kaşğarinin "Divani-lüğət-it-türk" əsəri türk filologiya elminin tarixində mühüm yer tutur.*

*"Divani-lüğət-it-türk" əsərində çox sayda xüsusi adlar işlənmişdir. Ona görə də bu abidədə onomastik tədqiqat üçün zəngin material vardır. Bu abidədəki onomastik vahidlərin öyrənilməsinə XX əsrin 20-30-cu illərindən başlanmışdır. Abidədəki onomastik vahidlərin böyük bir qrupu antroponimlərdən ibarətdir. Abidədə işlənmiş şəxs adları türk dillərinin tarixini, qədim türk ad sistemini bütöv şəkildə araşdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Abidədə advermə adət və inancları, şəxs adı, ləqəb və titullar, onların işlənmə xüsusiyyətləri haqqında qiymətli bilgilərə rast gəlirik. Ümumiyyətlə, bu ensiklopedik əsərdə yüz ona qədər antroponimik vahid işlənmişdir. Bunların 4-5-i qadın adlarından ibarətdir. Onu da qeyd etmək lazımdır ki, 110 antroponim qədim türk ad sistemi haqqında müəyyən təsəvvür yaratsa da onu tam şəkildə əhatə etmir. Abidədə işlənmiş ləqəb və titulların özünəməxsus xüsusiyyətləri müəllif tərəfindən nümunələr əsasında şərh edilir. Bu əsərin diqqətəlayiq bir cəhəti də ondan ibarətdir ki, M.Kaşqari divandakı ləqəb və titulları özündən əvvəlki dövrlərin türk antroponim, ləqəb və titulları ilə müqayisəli şəkildə tədqiq etmişdir. Bütün bu məsələlər haqqında məqalədə ətraflı şəkildə məlumat verilmişdir.*

**Açar sözlər**: *"Divani-lüğət-it-türk", dil tarixi, onomastika, antroponimlər, ləqəb, titul.*

**Giriş.** XI əsrin görkəmli türk alimi Mahmud Kaşqarlının məşhur divanında onomastik vahidlər geniş şəkildə işlənmişdir. Bu onomastik vahidlərin böyük bir qrupu antroponimlərdən ibarətdir. Abidədə işlənmiş şəxs adları türk dillərinin tarixini, onomastikasını, qədim türk ad sistemini bütöv şəkildə araşdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Abidədə advermə adət və inancları, şəxs adı, ləqəb və titullar, onların işlənmə xüsusiyyətləri haqqında qiymətli bilgilərə rast gəlirik. Ümumiyyətlə, bu ensiklopedik əsərdə yüz ona qədər antroponimik vahid işlənmişdir. Bunların 4-5-i qadın adlarından ibarətdir. Onu da qeyd etmək lazımdır ki, 110 antroponim qədim türk ad sistemi haqqında müəyyən təsəvvür yaratsa da, onu tam şəkildə əhatə etmir. Müəllif özü də əsərində bu cəhəti nəzərə almış, həmin məsələyə işarə etmişdir. O, böyük fədakarlıqla topladığı onomastik vahidlərin əsas xüsusiyyətlərini aşağıdakı şəkildə xülasə etmişdir: "Yazdığım dağlar, çöllər, dərələr, sular, göllər İslam türklərinin əllərində bulunanlardır. Çünki dillərdə dolaşan bunlardır. Bunları tanınmış olduqları üçün yazdım, tanınmamış olanların bir çoxlarını buraxdım. Müslüman olmayan türk illərindən bir takımını dahi yazdım, gerisini yazmadım; çünki onları yazmaqda bir fayda yoxdu. Türk dilinə sonradan girmiş olan kəlmələri yazmadım; erkək və kadın adları da yazılmadı. Bunlardan ancaq doğru bilinməsi üçün çox istifadə edilən, hər kəs tərəfindən tanınan adlar yazıldı" (MK, I, 27-28).

Məlumdur ki, X əsrin ikinci yarısında Orta Asiyada Qaraxanlı dövləti zamanında türklər dövlət səviyyəsində kütləvi şəkildə islamı qəbul etmişlər. İslamın bayraqdarına çevrilən türklər təbiidir ki, bir sıra islam qanunlarına, adət və ənənələrinə tabe olmağa, əməl etməyə məcbur idilər. Bu səbəbdən XI əsrdəki türk antroponimləri sisteminin əvvəlki dövrlərin, məsələn,

Göytürk dövrünün ad sistemindən bəzi fərqli xüsusiyyətləri gözə çarpmaqdadır. Bu əsrdə artıq ərəb mədəniyyəti türk saray və divanlarında müəyyən nüfuza sahib olmağa başlamışdı. Bir sıra türk dövlət adamları, böyük vəzifə sahibi olan şəxslər formal da olsa ərəb adları daşımağa başlamışdı. Məsələn, Əbu Bəkir-il-Mufit-ul-Cərcərai (MK, I, 351), Əbubekir-il Kaffal-us-Şaşi (MK, I, 443), İbnü-eb-id-dünya (MK, I, 351) və b. Bu adlar ərəb ad sisteminə aid künyə, nisbə, ləqəb kimi bütün xüsusiyyətləri əhatə etməkdədir. Bununla yanaşı, bu dövrün şəxs adlarında ərəb mənşəli sözlərlə bərabər, türkmənşəli leksik vahidlərin də işlənməsinə təsadüf edirik. Bu dövrdə məşhur adamlar öz adına yüksək peyğəmbərimizin adını və ya epitetlərindən birini əlavə edirdi. Səlcuq və Osmanlı dövrü türk mədəniyyətinin tanınmış tədqiqatçısı rus türkoloqu V.A.Qordlevski türk antroponimiyasındakı bu cəhəti türklər arasında bu dövrdə islam öncəsi ənənələrin yaşadılması, təsiri ilə izah edərək yazır ki, "Oğuzlar rəsmən müsəlmandır, amma bu zahirən belədir, uzun müddət onlar yeni müsəlman adını və əski boy adlarını bərabərcə yaşatmışlar... Qoşaadlılıq hətta saray adamlarında da görünməkdədir. Məsələn, Ziyaeddin Kara Arslan, Fahreddin Arslan doğmuş, Seyfəddin Kara Sonkor və s." (3, s. 83-84).

XI əsrdə türk dünyasında islam adət-ənənələri geniş sahəni əhatə etməsinə baxmayaraq, divanda göstərildiyi kimi, türkcə antroponimlərin işlənmə dairəsi xeyli geniş olmuş, qədim türk antroponim sistemi qorunmuşdu. Məhz buna görə abidədə işlənmiş şəxs adlarının yetmiş beş faizdən çoxunu türkmənşəli antroponimlər təşkil etməkdədir.

M.Kaşğarinin divanı o dövr insanının adlandırma, advermə ənənələrinin, prinsip və metodlarının öyrənilməsi baxımından mühüm elmi əhəmiyyətə malikdir. Müəllif hər hansı bir leksik vahidi izah edərkən onomastika elmi üçün fövqəladə əhəmiyyət kəsb edən qiymətli fakt və məlumatları öz oxucusuna təqdim etmişdir.

**Əsas mətn**. Abidədəki Tutuk (MK, I, 380) və Tarxan (MK, I, 436) antroponimlərinə müəllif sadəcə şəxs, kişi adı deməklə kifayətlənmişdir. Bəllidir ki, bu şəxs adları vaxtilə hələ göytürk dövləti zamanında yüksək vəzifəli şəxslərin titulu kimi işlənirdi. Görünür, valideynlər öz uşaqlarına bu adları verməklə onların böyüyəndə yüksək mənsəb sahibi olmalarını arzu etmişlər. Tarxan antroponimi bu gün də Azərbaycan antroponimik sistemində yaşayır, bəlkə də bu ad arzu, diləklə əlaqədar qoyulur.

Abidədəki Badruk (MK, I, 466) antroponimin apelyativi qədim uyğur abidələrində işlənmiş və bayraq mənasını bildirmişdir. Buradakı Kalalduruk (MK, 1, 530) antroponimi də kalal-halal və duruk ünsürlərindən ibarətdir. -duruk ünsürü arxaik şəkilçilərdəndir, türk dillərində boyunduruk, oğulduruk, aqızdırık və s. nümunələrdə gözə çarpır [4, s. 176-177]. Mahmud Kaşqari özü də bu şəkilçi ilə işlənən bir neçə leksik vahidi kitabında vermişdir: tizildürük, közüldürük, çiniştürük, kümüldürük, sakalduruk (MK, I, 529-530). Qədim dövrdən davam edərək divanda da işlənən arxaik antroponimlərdən biri Umay leksemidir. Umayka tapınsa oğul bolur (MK, 1, 123) cümləsində bunun izi görünməkdədir.

Mahmud Kaşqarinin divanında ləqəb və titul bildirən köməkçi ad kateqoriyası mühüm yer tutur.

Yeri gəlmişkən o əksər hallarda lakab, bəzən isə ad terminini titul, ləqəb mənasında işlədirdi. Məsələn, müəllif yafqu titulu haqqında bəhs edərkən yazır: "Halktan olup iki dərəcə aşağıda bulunan kişiye verilen lakap" (MK, III, 32).

Mahmud Kaşqari qədim dövrdə işlənən titulların bir çoxunun XI əsrdə olduğu kimi işləndiyini qeyd etsə də, tutuk, tarxan, sanqun, tudun və s. kimi qədim türk titulları bu dövrdə artıq arxaikləşməkdə idi. Ona görə bunların bəzisi (məs. Tarxan, Tutuk kimi) yalnızca bu dövrdə şəxs adı kimi rast gəlinir. Eyni zamanda bu dövrdə bir sıra yüqrüş, sağun, tüksin,

terken, tarım kimi yeni titullar meydana çıxmışdı. Divanda işlənmiş titul bildirən leksemlərin bir qismi antroponimlərin tərkibində çıxış edir, digər qismi isə çıxış etmir. Biz burada antroponimlərin tərkibində işlənən titul bildirən leksemləri şərh edəcəyik. Adətən, titulları türkologiyada tədqiqatçılar iki qrupa ayırırlar: 1. Məmuriyyət titulları. 2. Şərəf titulları [6, s. 33].

Divanda antroponimlərin tərkibində aşağıdakı titul bildirən leksemlərə təsadüf edirik:

1. Xakan, xan. Bunların ikisi də eyni kökdən gəlsə də müəllifə görə bütün xanların böyüyü Alp ər tonqadır, xakan odur (MK, III, 157). Hər iki leksem bir bölgənin sahibi olmaq üçün yerə nazil olmuş göylərin elçisi mənasını bildirir. Abidədən bu titulun işlənməsinə aid nümunələr: Kadır xan, Kılıç xan (MK, 1, 364), Köl Bilgə xan (MK, I, 428), Boğra kara xan (MK, I, 409, 420). Qeyd etdiyimiz kimi xan titulu kan şəklində digər qədim türk yazılı abidələrində də işlənmişdir. Məs.: Kan elçi (USp. 53), Kara kan (Y 17), Kan oğul (USp. 8) və s. Xan – hökmdar, hakim, başçı mənasını bildirir.

2. Abidədə beq titulu ilə formalaşan antroponimlər də çoxdur. Məsələn: Bilgə beq (MK, 1, 428) Çağrı beq (MK, I, 427), Inanç beq (MK, I, 133) və s.

Beq titul bildirən leksemi hakim, ağa, cənab, başçı mənalarını bildirmişdir. Göy türk və uyğur abidələrində də eyni dərəcədə fəaldır. Məs.: Bars beq (Ktş 20), Ürünq beq (İH 22), Beq çor (Talas, 111), Beq Arslan (USp. 26) V.V.Bartold bu titulun qədim türk cəmiyyətində ümumiyyətlə üç əsas anlayışı, məfhumu bildirdiyini qeyd edir: 1) əsl-nəcabəti olan şəxs, 2) kiçik qəbilə və ya tayfa hakimi. 3) sözün geniş mənasında hər hansı bir hakim [2, s. 502].

3. Teqin titulu. Abidədəki antroponimlərin tərkibində bu leksem tez-tez işlənir. Mahmud Kaşqari qeyd edir ki, bu titul Qaraxanlı dövründə ancaq şahzadələrə verilirdi, xalq içindən çıxanlara isə öqe deyilirdi. Sülalənin kiçik övladlarına isə öqe teqit adı verilirdi (MK, I, 355). İlk əvvəl bu titulun kölələrə verildiyini göstərən müəllif onun yeni məna qazanmasını belə şərh edir: “Bu adın kölələrdən Afrasyab oğullarına keçməsinə gəlincə onlar babalarını çox sayarlar, büyük tutarlar. Nə vakit atalarına karşı söz söyləyəcək olurlarsa, yaxut bir şey yazmaq istərlərsə, özlərini küçük göstərmək, babalarını büyüklətmək için kul şöylə yaptı, kul böylə işlədi derlər: giderek bu kelime onlara ad olarak kaldı. Kölelerin adı bunlardan ayırlmak için bu kelimenin yanına bir şey eklenir” (MK, I, 413-414). Abidədə həmin titul aşağıdakı antroponimlərin tərkibində işlənmişdir: Alp tiqin, Kutluğ tiqin, Kümüş tiqin, Çağrı tiqin, Küç tiqin (MK, 1, 413) və s. Bu titul bildirən leksem digər qədim türk abidələrində də gözə çarpır. Məs.: Kül tiqin (Ktş 27), Ozmış tiqin (MÇ 9), Oğul tiqin (USp. 12) və s.

4. Bilqe titulu abidədə iki antroponimin tərkibində işlənmişdir: Bilgə beq (MK, I, 428), Kül Bilgə xan (MK, I, 428). Bu titul digər qədim türk abidələrində də işlənməkdədir. Məs.: Bilgə kağan (Kik 1), Bilgə Işbara tamğan tarkan (04), Bilgə Tonyukuk (Ton. 1), Bilgə Çiqşin (Çakol 1) və s.

5. Alp titulu qədim dövrdə alplar ənənəsinin təsiri ilə bütün abidələrdə, o cümlədən divanda geniş şəkildə işlənir. Məs.: Alp Aya (MK, I, 41), Alp Ertonqa (MK, III, 208), Alp tiqin (MK, I, 413). Bu titul Yenisey və qədim uyğur abidələrindəki antroponimlərin tərkibində də gözə çarpır. Məs.: Alp urunqu tutuk (Çakol 4), Inançu Alp (Altın köl 2), Alp teqin (USp. 26), Alp turmuş (USp. 120), Alp Şınqkurtiqin (USp. 26) və s.

6. Abidədə inanç titulu bir antroponimin tərkibində işlənmişdir: Inanç beq (MK, I, 133). Digər qədim türk yazılı abidələrindəki antroponimlərin tərkibində ınanç/ınançu tituluna təsadüf edilir. Məs.: Inanç saçu (USp. 26), Inanç menqü (USp. 26), Inançu Apa yarğan tarkan (Ktq 2), Inançu çor (Ktş 13), El inançu (O z) və s.

7. Inal titulu abidədə bir antroponimin tərkibində çıxış etmişdir: Inal öz. Mahmud Kaş-

qari bu şəxs adını qıpçaq xanlarından birinin daşıdığını göstərir (MK, I, 361) və qeyd edir ki, bu titul anası xanədandan olan, atası xalqdan olan bütün gənclərə verilir (MK, L, 122).

8. Er titulu ilə abidədə bir antroponim meydana çıxır: Alp er tonqa (MK, I, 46) Bu titul digər qədim türk yazılı abidələrində daha fəal olmuşdur. Məs.: Er börü (TTIX), Er sançmış (USp. 70), Er toğmış (TTIX) və s.

Divanda bu titullardan əlavə, irkin titulundan bəhs edərkən müəllif bunu karluk böyüklərinin daşıdığını göstərir və Kül irkin (MK, I, 108) antroponimini nümunə gətirir. Onu da qeyd edək ki, Göy türk abidələrində də bu titul şəxs adlarının tərkibində, xüsusilə Yirbayırku Uluğ İrkin (KTş 34) antroponiminin tərkibində işlənmişdir.

Müəllif yenə karluk boyunun böyüklərinin sağun titulunu daşıdığını və bununla əlaqədar türk hakimlərinə Ata sağun deyildiyini göstərir (MK, I, 403). XIII əsr tarixçisi Cüveyni Karaxanlıların Səmərqənd hökmdarı Cəlaləddin Ali Çağrı xanın bu adla tanındığını göstərir [1, s. 257].

Müəllif eyni zamanda yabakuların (əjdaha mənasını verdiyini də orada qeyd etmişdir) başçılarına büke titulu verildiyini qeyd edir və Büke budraç antroponimini nümunə göstərir (MK, III 227).

Divanda işlənmiş qadın adları, titul və ləqəbləri. Mahmud Kaşqarlı XI əsr türk cəmiyyətində qadının layiqli yer tutduğunu göstərir. Ona görə də divanda ona qədər qadınlara aid şəxs adı, titul və ləqəb işlənmişdir. Bunlar türk antroponimik sisteminin əsas xüsusiyyətlərini, əsas cizgilərini, ənənələrini olduğu kimi özündə əks etdirmişlər. Abidədə daha çox gözə çarpan Terken katun antroponimidir. Müəllif bu antroponimin apelyativinin mənasını da izah etməyə çalışaraq yazır ki, vilayət üzərində vali olan şəxsə xaqanların müraciət formasıdır, kəndisinə itaət edilən deməkdir. Xanlıq məqamında oturmayanlara bu söz söylənməz (MK, I, 441). Başqa bir yerdə müəllif Terkenxatun antroponiminin qarşılığını Sultan xatun şəklində vermişdir (MK, I, 376). Eyni zamanda müəllif bir şeir parçasında terken antroponiminin qarşılığının həm də xaqan mənasına gəldiyini göstərmişdir (MK, II, 209). Tədqiqatçılar bu şəxs adının şərhi ilə əlaqədar müxtəlif mülahizələr irəli sürmüşlər. Osman Turan yazır ki, o Qaraxanlı hökmdarlarından Tamğaç xanın qızıdır. Səlcuqlu hökmdarı Sultan Məlikşahla evlənmişdir. Sultan sarayında ən sözü keçən şəxs olmuşdur. Terken antroponiminin apelyativi hakim, hökmdar, məlikə mənasını ifadə edir. Bəlkə də qədimdə sadəcə titul olmuşdur. Çünki türklərdə adın yerinə titulun, ləqəbin işlənməsi ənənəsi olmuşdur [7, s. 67-73]. Bəzi alimlər isə bu sözü indiki Türkan antroponimi ilə eyniləşdirmişdir [8, s. 177].

Divanda işlənmiş qadın adlarından biri də Oğlağu katun şəxs adıdır. Müəllif bu şəxs adının apelyativinin bolluq içində böyüyən mənasını ifadə etdiyini göstərir (MK, I, 138). Divandakı qadın adlarından biri də Afrasiyabın qızının adı kimi təqdim edilən Kaz antroponimidir. Müəllif Qezvin toponiminin də Kaz ilə bağlı olduğunu qeyd edir (MK, III, 149). Bu antroponimin apelyativi ehtimal ki, quş adından ibarətdir. Türk mədəniyyəti tarixində, qədim dövrdə, uyğur abidələrində qaz bənzətmə vasitəsi kimi istifadə edilmişdir.

Divanda qadınlara aid titul və ləqəblərə, cariyə, kölələrin, qarabaşların adlarına da müəyyən yer ayrılmışdır. Katun XI əsr türk cəmiyyətində saray qadınları üçün ən yüksək titul hesab edilirdi. Eyni zamanda o dövrdə hökmdarın ancaq baş hərəmi bu titulu daşımaq hüququna sahib idi. Hökmdarın o biri xanımları, qadınları kunçuy titulunu daşıya bilərdilər. Müəllif lüğətdə kunçuy maddəbaşı sözünü izah edərkən xatundan bir dərəcə aşağıda olan qadın, bikə, şahzadə və buradan alınaraq katunkunçuy deyilir deyə yazır (MK, III, 240).

Altun tarım maddəbaşı sözünü izah edərkən müəllif onun böyük qadınların ləqəbi, titulu olduğunu, Afrasyab soyundan olan, xanların övladlarına müraciət forması olduğunu qeyd edir

(MK, I, 396). Bizcə, burada Altun leksemi məcazi mənadadır, hörmətli mənasını ifadə edir. Buna Orxon əlifbası ilə yazılmış uyğur abidələrində (Altun tay sanqun – ThS IV 5) təsadüf edirik. Tarım isə qədim uyğur abidələrində qadınlara aid geniş şəkildə işlənən tengrim titulunun bir fonetik variantıdır.

Müəllif cariyə və qadın kölələrin adına da geniş yer vermişdir: Çin qumaşının adı Kaçaçı cariyə adı kimi verir (MK, II, 285). Bəziləri təmizlikdə, zəriflikdə, inciyə bənzədilərək ona Yinçü adı verilirdi (MK, III, 30). Avunmaq feilindən gələn Avunçu adı da o dövrdə cariyələrə verilirdi (MK, 1, 134). Ay cariyə adı təmizlikdə, gözəllikdə Aya bənzədilmişdir (MK, II, 193). Müəllif Xumaru qadın adının apelyativinin miras olduğunu göstərir (MK, 1, 445). Maraqlıdır ki, bu antroponim "Kutadğu biliq"də k samiti ilə Kumaru şəklində Odğurmışın köləsinin adı olaraq çıxış etmişdir (KB, 6286, 6293). Qədim türk abidələrində Kumar Arslan (USp. 92) və Xumar taş [6, s. 545] antroponimlərinin də işlənməsindən belə nəticə çıxarmaq olar ki, kumar/xumar və Kumaru/Xumaru leksemləri qohum sözlərdir. F.Sümər kumar/xumar lekseminin soğd dilindən alındığını və təsəlli, təşviq mənasını bildirdiyini qeyd edir [6, s. 545]. Bu mülahizə faktlarla əsaslandırılmışdır.

**Nəticə**. Beləliklə, M.Kaşqari divanında XI əsrdə işlənmiş türk ləqəb və titulları və onların məna xüsusiyyətləri geniş şəkildə təsvir və təhlil edilmişdir. Müəllif eyni zamanda həmin köməkçi ad kateqoriyasını qədim türk ləqəb və titulları ilə müqayisəli şəkildə tədqiq etmiş, onların inkişaf tarixini ümumiləşdirməyə çalışmışdır. Abidə türk dilçiliyi, türkologiya tarixində ilk tədqiqat əsəridir ki, ləqəb və titulları bu qaydada elmi şəkildə tədqiq edilmişdir. Ona görə də 950 illiyini qeyd etdiyimiz "Divani-lüğət-it-türk" abidəsi filologiyamızın dəyərli və monumental qaynaqlarından biri kimi elm adamları tərəfindən daha geniş şəkildə müxtəlif elmi baxış bucağından araşdırılmalıdır.

## ƏDƏBİYYAT

1. Cuveyni A.A. Tarihi-cihanquşa. Ankara: TTK yay, 1999.
2. БартольдВ.В. Сочинения Т.В. Москва, 1970.
2a. Kaşğarlı M. Divanü luğat-it-türk: 4 ciltte. Ankara: TDK yay, 2002.
3. Годлевский В.А. Избранные сочинения. Т. I, Москва, 1960.
4. Quliyev Ə. Qədim türk onomastikasının leksik-semantik sistemi. II kitab, Bakı: Elm, 2001.
5. Севортян Е.В. Этимологичекий словарь-тюркских языков. Москва, 1974.
6. Sümer F. Türk devletleri tarihinde şahıs adları. İstanbul, 1999.
7. Turan O. Terken unvanı // Türk hukuk tarihi, İstanbul, 1944, № 1.
8. Ülkütaşır Ş.M. Büyük türk dilcisi Kaşgarlı Mahmut. Ankara, 1972.

***Naxçıvan Dövlət Universiteti***
***E-mail: ebulfez1950@mail.ru***

**Abulfaz Guliyev**

## NICKNAMES AND TITLES IN THE MONUMENT "DIVAN LUGAT AT-TURK"

An important place in the history of Turkic philological science is occupied by the work of the 11th century scientist, outstanding Turkologist Mahmud Kashgari "Divan lugat at-turk"

(“Old Turkic dictionary”). In the work “Divan lugat at-turk” many proper names are studied. Therefore, this monument contains rich material for onomastic research. The study of onomastic units in this monument began in the 20-30s of the 20th century. A large group of onomastic units are anthroponyms. Personal names mentioned in the monument are of great importance for studying the history of Turkic languages, the ancient Turkic system of names as a whole. In the monument we find valuable information about customs and beliefs, personal names, nicknames and titles, the peculiarities of their use. In total, this encyclopedic work examines up to 110 anthroponymic units. 4-5 anthroponyms of them are female names. It should also be noted that 110 anthroponyms, although they give a certain idea of the ancient Turkic system of names, do not cover it in full. The unique features of nicknames and titles examined in the monument are interpreted by the author based on samples. A notable aspect of this work is that M.Kashgari examined the nicknames and titles presented in the dictionary in comparison with Turkic anthroponyms, nicknames and titles of the preceding periods. All these issues are discussed in detail in the article.

**Keywords:** *“Divan lugat at-Turk”, history of language, onomastics, anthroponyms, nicknames, titles.*

**Абульфаз Гулиев**

## ПРОЗВИЩА И ТИТУЛЫ В ПАМЯТНИКЕ «ДИВАН ЛУГАТ АТ-ТУРК»

Важное место в истории тюркской филологической науки занимает труд ученого XI века, выдающегося тюрколога Махмуда Кашгари «Диван лугат ат-турк» («Древнетюркский словарь»).

В произведении «Диван лугат ат-турк» исследовано большое количество имен собственных. Поэтому данный памятник содержит богатый материал для ономастических исследований. Изучение ономастических единиц в этом памятнике началось с 20-30-х годов XX века. Большую группу ономастических единиц составляют антропонимы. Личные имена, упомянутые в памятнике, имеют большое значение для изучения истории тюркских языков, древнетюркской системы имен в целом. В памятнике мы находим ценные сведения об обычаях и верованиях, личных именах, прозвищах и титулах, особенностях их использования. В целом, в этом энциклопедическом труде рассмотрено до 110 антропонимических единиц. 4-5 антропонимов из них – это женские имена. Следует также отметить, что 110 антропонимов, хотя и дают определенное представление о древнетюркской системе имен, не охватывают ее в полной мере. Уникальные особенности прозвищ и титулов, рассмотренных в памятнике, интерпретируются автором на основе образцов. Примечательным аспектом этой работы является то, что М.Кашгари исследовал прозвища и титулы, представленные в словаре, в сравнении с тюркскими антропонимами, прозвищами и титулами предшествующих ему периодов. Обо всех этих вопросах подробно рассказывается в статье.

**Ключевые слова**: *«Диван лугат ат-турк», история языка, ономастика, антропонимы, прозвища, титулы.*

**Daxilolma tarixi: İlkin variant 10.09.2024**
**Son variant 03.10.2024**